BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ
MƏRKƏZİ

TƏHLİL

# "Tokayevin Çinə səfəri: Qazaxıstan-Çin münasibətlərinin yeni mərhələsi"

Nağı Əhmədov

Mirza İbrahimov 8, Baku, AZ1005, Azerbaijan,
(+994 12) 596-82-39, (+994 12) 596-82-41
E-mail: info@aircenter.az, www.aircenter.az

12 İYUN 2023

# “TOKAYEVİN ÇİNƏ SƏFƏRİ: QAZAXISTAN-ÇİN MÜNASİBƏTLƏRİNİN YENİ MƏRHƏLƏSİ”

## Giriş

Qazaxıstan Respublikasının Prezidenti Tokayev 17-19 may tarixlərində Çinə dövlət səfəri edib. Qazaxıstan Prezidentinin üç günlük səfər proqramı zəngin olub: elektron saytda milli pavilyonun açılışı, Sianda quru limanda Qazaxıstanın logistika mərkəzinin tikintisinə başlanması, investisiya dəyirmi masasında çıxış, yeni Baş Konsulluğun açılışı, Çin şirkətlərinin rəhbərləri ilə danışıqlar, “Mərkəzi Asiya+Çin” sammitində iştirak.

Səfər zamanı Tokayev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi, ticarət-iqtisadi, investisiya, nəqliyyat-logistika və enerji sahələrində əməkdaşlığın genişləndirilməsi, habelə mədəni-humanitar əlaqələrin dərinləşdirilməsi məsələləri müzakirə olunub. **Səfərin nəticəsi olaraq ümumi dəyəri 22 milyard dollar olan 47 sənəd imzalanıb.** Həmçinin, növbəti “Mərkəzi Asiya+Çin” sammitinin 2025-ci ildə Qazaxıstanda keçirilməsi razılaşdırılıb.

Qazaxıstan Prezidenti “Mərkəzi Asiya+Çin” sammitində bir sıra təşəbbüslərlə çıxış edib. O, region ölkələri ilə Çin arasında əməkdaşlığın prioritet istiqamətlərini açıqlayıb.

## Ticarət dövriyyəsi

Son illər Qazaxıstan Respublikası ilə Çin arasında xarici ticarətin həcmi əhəmiyyətli artım nümayiş etdirib. 2022-ci ildə Qazaxıstan və Çin arasında ticarət dövriyyəsi 2021-ci il ilə müqayisədə 34,1% artaraq **24,1 milyard dollar** təşkil edib. Çinə ixrac 34,7% artımla 13,2 milyard dollar (İtaliyadan (13,9 milyard) sonra ikinci), Çindən idxal isə 11 milyard dollar (artım 33,5%) təşkil edib. Qazaxıstandan Çinə ixrac edilən malların böyük hissəsi xam neft və neft məhsullarıdır: 4,1 milyard dollar. İkinci yerdə təmizlənmiş mis və mis ərintiləri (2,3 milyard dollar) və təbii qaz (1,2 milyard dollar) qərarlaşıb. Həmçinin, ilk beş ixrac malına qeyri-üzvi kimya məhsulları və ferroərintilər daxildir.

Eyni zamanda, 2021-ci ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 2017-ci illə müqayisədə 73,16 faiz artaraq **18,2 milyard** ABŞ dollarına çatıb. Qazaxıstan hökumətinin statistikasına görə, Çin-Qazaxıstan ümumi ticarətinin 40 faizi təkcə Sincan vilayətinin payına düşür. Xatırladaq ki, Qazaxıstanla Sincan arasında ticarət dövriyyəsinin 3 dəfə artırılması planlaşdırılır.

Müqayisə üçün qeyd edək ki, ötən il Qazaxıstanın Mərkəzi Asiya ölkələri arasında ticarət dövriyyəsi isə 19% artaraq **8 milyard dollar** təşkil edib. Yaxın gələcəkdə bu rəqəmi 15 milyarda çatdırmaq hədəfi qoyulub.

Çin 2022-ci ildə Qazaxıstanın ən böyük ticarət tərəfdaşlarından biri olub və bu ölkə ilə ticarət Qazaxıstanın ümumi ticarət dövriyyəsinin **18%**-ni təşkil edib. Qazaxıstan Respublikasının idxal strukturunda Çinin payı **21,9%** təşkil edib (Rusiyadan (34.7%) sonra ikinci). Həmçinin, Çin Qazaxıstanın əsas ixracatçılarından biri olub ümumi ixracda payı **15,6%** təşkil edir (İtaliyadan (16.4%) sonra ikinci).

2023-cü ilin yanvar-mart aylarında Qazaxıstan Respublikasının əsas ixrac tərəfdaş ölkələri bunlar olub: İtaliya (21,4%), **Çin (14,1%)**, Rusiya (12,6%). İdxalda əsas tərəfdaş ölkələri isə bunlardır: Rusiya (26,9%), **Çin (23,5%)**, Almaniya (5%).

Ümumilikdə, iqtisadi göstəricilərin artması özlüyündə ikitərəfli əməkdaşlığın necə gücləndiyini göstərir. Qarşılıqlı ticarətin artırılması perspektivlərini nəzərə alaraq, Qazaxıstan yeni gömrük anbarlarının yaradılması üzərində fəal işləyir. Tokayev təklif edib ki, bu iş "C5+China" vahid elektron ticarət platformasının tətbiqi ilə sinxronlaşdırıla bilər.

**<u>Qazaxıstan və Çinin ticarət dövriyyəsi ilə bağlı statistikasında uyğunsuzluq:</u>**

Qazaxıstan Maliyyə Nazirliyinin 2020-2024-cü illər üçün inkişaf planının icrasına dair hesabatına görə 2022-ci ildə iki ölkənin idxal-ixrac əməliyyatları üzrə uyğunsuzluq 2021-ci illə müqayisədə 7,6 faiz bəndi azalıb: 2021-ci ildəki 40,5 faizlə müqayisədə uyğunsuzluq 5,4 milyard dollar (32,9%) təşkil edib. Belə ki, 2022-ci ildə Qazaxıstanın Çinə ixracı, ÇXR Baş Gömrük İdarəsinin məlumatına görə, 15,4 milyard dollar təşkil edib. Qazaxıstan Milli Statistika Komitəsinin məlumatına görə isə Çindən Qazaxıstana idxalın həcmi 4,1 milyard dollar təşkil edib.

Qeyd edək ki, Tokayev 2022-ci ilin fevralında korrupsiyaya qarşı mübarizəyə həsr olunmuş iclasda gömrükdə korrupsiya ilə mübarizə mövzusuna toxunaraq qeyd edib: "İki ölkənin Çinlə qarşılıqlı ticarət statistikası fərqlidir. Aralarındakı fərq milyardlarla dollardır. Ötən il bu rəqəm 5,7 milyard dollara çatıb. Bu qədər böyük fərqin necə yarandığını heç kim izah edə bilməz. Açığını desəm, bu, qaçaqmalçılıqdır". Bir neçə həftə sonra hökumətin iclasında maliyyə naziri Yerulan Jamaubaev Qazaxıstan və Çin məlumatları arasında uyğunsuzluğun bir sıra səbəblərini açıqlayıb: a) metodoloji; məsələn, Çin mallarının Qazaxıstan Respublikasının ərazisindən tranzitinin bir hissəsi Çinin statistikasında ölkəmizə ixrac kimi öz əksini tapıb; b) Çin istehsalçıları daha çox subsidiya və ƏDV-nin geri qaytarılması üçün ixrac qiymətini şişirtməkdə maraqlıdırlar; c) bəzi Qazaxıstan idxalçıları gömrük dəyərini aşağı qiymətləndirməyə meyllidirlər, digərləri isə sadəcə olaraq saxta bəyannamə verirlər. Nazir yuxarıda qeyd olunan amilləri nəzərə alaraq 2021-ci ilin sonunda 5,7 milyard dollarlıq fərqi aşağıdakı ardıcıllıqla ayırıb: Təxminən 300 milyon dollar metodoloji məsələlərdən (və ya 5,7 milyard dolların 5%-dən bir qədər çoxu) daxil olub. Təxminən 2,6 milyard dollar Çin mallarının Qazaxıstan Respublikası ərazisindən tranziti ilə bağlıdır (46%). Ən böyük pay saxta və etibarsız bəyannamələrin payına düşür - 2,8 milyard dollar (49%). Müstəqil araşdırma mərkəzi olan "Kursiv Research" 2003-cü ildən 2022-ci ilə qədər son 20 ilin güzgü statistikasını təhlil edib: **20 il ərzində qaçaqmalçılıq əlamətləri ilə Çin idxalının ümumi həcmi 38 milyard dollar təşkil edib**.

Belə uyğunsuzluğun başqa ölkələrdə də olmasını nəzərə alsaq bunun ümumi qəbul edilmiş digər bir sıra səbəbləri də var, onlardan ən əhəmiyyətliləri bunlardır: bəzi ölkələr xarici ticarət statistikasında azad iqtisadi zonalardakı əməliyyatları nəzərə alır, digərləri isə nəzərə almır; malların göndərilməsi və qəbulu arasında vaxt gecikməsi var; idxal zamanı malların kifayət qədər dəqiq bəyan edilməməsi faktları mövcuddur.

**<u>İnvestisiya:</u>**

Qazaxıstan Respublikasının Milli İqtisadiyyat Nazirliyinin məlumatına görə ümumilikdə Qazaxıstana müstəqillik illərində **350 milyard dollar**dan çox birbaşa xarici investisiya cəlb edib. Bunun **23,2 milyard dollar**dan çoxu Çinin payına düşür ki, bu da Çini Qazaxıstan iqtisadiyyatının əsas investorları siyahısında Hollandiya, ABŞ və İsveçrədən sonra **dördüncü yer**ə qoyur. Çin investisiyaları əsasən neft-qaz sektoruna, emal, tikinti, topdan və pərakəndə ticarət, maliyyə fəaliyyətləri, nəqliyyat və anbar sənayesinə yönəlib. Qazaxıstanda "CNPC", "CITIC", "NFC", "Sinopec", "Huawei" kimi iri Çin korporasiyaları uğurla fəaliyyət göstərir.

Mayın 18-də Tokayevin Çinə dövlət səfəri çərçivəsində dövlət başçısı Qazaxıstan-Çin investisiya dəyirmi masasında iştirak edib. Paralel olaraq Qazaxıstan İnkişaf Bankı ASC ("DBK") və Çin İnkişaf Bankı ("CDB") arasında Baş Kredit Sazişi bağlanmışdır. Sənədi "Baiterek" Milli İdarəetmə Holdinq SC-nin rəhbəri, "DBK"nin Direktorlar Şurasının sədri Kanat Şarlapayev və "CDB"nin prezidenti Tan Ciong imzalayıblar. Müqavilə üzrə limit 300 milyon ABŞ dollarıdır. Bu vəsaitlər Qazaxıstan iqtisadiyyatının kimya və mədənçıxarma, enerji, nəqliyyat, tikinti materiallarının istehsalı, kənd təsərrüfatı və digər sahələrində investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilə bilər. Holdinq sədrinin sözlərinə görə, həm Çinin, həm də dünyanın aparıcı maliyyə qurumu olan Çin Sənaye-Kommersiya Bankı ("ICBC") ilə daha bir sənəd imzalanıb. Bundan başqa, "Baiterek" və Çin Beynəlxalq Kapital Korporasiyası ("CICC") arasında qarşılıqlı fəaliyyət haqqında memorandum imzalanıb.

**<u>Elektron Ticarət İmkanları</u>:**

Tokayevin fikrincə qarşılıqlı ticarətin inkişafı üçün əlavə imkanlar Çinin dünya lideri olduğu e-ticarət sahəsindədir. Bir gün əvvəl dövlət başçısı "JD.COM" platformasında milli pavilyonun açılışında iştirak edib ("JD.COM" Çinin ən böyük onlayn ticarət və e-ticarət şirkətidir, həmçinin logistika və malların pərakəndə satışıdır. Platformanın 580 milyondan çox qeydiyyatdan keçmiş istifadəçisi var. Bu günə qədər platformada 60-dan çox ölkənin Milli Pavilyonları fəaliyyət göstərir).

**<u>Nəqliyyat və logistika infrastrukturunun inkişaf perspektivləri</u>:**

Dövlət başçısı deyib: "**Biz çinli tərəfdaşları Xəzər dənizi limanlarının imkanlarının genişləndirilməsi, onların fəaliyyətinin rəqəmsallaşdırılması, eləcə də nəqliyyat gəmilərinin**

**birgə istehsalı sahəsində qarşılıqlı faydalı əməkdaşlığa dəvət edirik**". O qeyd edib ki, Qazaxıstan-Türkmənistan-İran dəmir yolunun potensialından istifadə də ölkələrimiz üçün böyük perspektivlər açır. Bu magistral Şərqi Asiyadan Fars körfəzi ölkələrinə gedən ən qısa yollardan birinin inkişafında mühüm halqadır. Bu istiqamətdə atılacaq vacib addım Qazaxıstan-Çin sərhədində üçüncü dəmir yolu keçidinin tezliklə açılması olacaq. Tokayev həmçinin bildirib: "Dövlətlərimiz üçün mühüm əhəmiyyət kəsb edən Sammitin Böyük İpək Yolunun başladığı, xalqlarımızın tarixi talelərini, bu gününü və gələcəyini birləşdirən qədim Sian şəhərində keçirilməsi çox rəmzidir".

Qazaxıstan Dəmir Yolu ("KTZ") şirkətinin sədr müavini Yerlan Koişibayev bildirib ki, təkcə 2022-ci ildə Qazaxıstan və Çin arasında **23 milyon ton** yük daşınıb. Bu, 10 ilin rekord göstəricisidir. O həmçinin bildirib ki, 2023-cü ilin birinci rübündə tranzit yükdaşımaların həcmi 2022-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 35 faiz artaraq **7,2 milyon ton** təşkil edib, Qazaxıstanın Çinə ixracı 53 faiz artıb. Konteyner daşımaları isə 19 faiz artaraq **313 000 TEU**-ya çatıb.

Tokayevin səfəri çərçivəsində nəqliyyat əlaqələri ilə bağlı iki **sənəd** imzalanıb: Transxəzər beynəlxalq nəqliyyat marşrutunun inkişafına dair Memorandum və beynəlxalq avtomobil daşımaları haqqında saziş. Həmçinin, Çin ilə birlikdə ildə 1 milyon 200 min TEU layihə gücü olan Sian şəhərinin quru limanında logistika mərkəzinin tikintisi barədə qərar qəbul edilib. Qazaxıstan-Çin sərhədində yerləşən Xorqos Ticarət Mərkəzində Çin sərmayəsi ilə ikinci quru liman tikiləcək. Artıq bu, dəmir yolu və avtomobil marşrutlarının birləşdiyi irimiqyaslı nəqliyyat və logistika mərkəzi deməkdir.

Qazaxıstan həm də Çin və Avropa arasında quru yolla yüklərin daşınması üçün əsas tranzit məntəqəsi rolunu oynayır. Qazaxıstan Respublikasının Baş naziri Əlixan Smailov Almatıda keçirilən "Avropa İttifaqı - Mərkəzi Asiya" ikinci iqtisadi forumunda Transxəzər marşrutunun inkişafından danışıb: "Birgə səylər sayəsində Çindən Avropaya tranzit müddəti ən azı 3 dəfə, 53 gündən 19-23 günə endirilib. *Qazaxıstan ərazisindən tranzit müddəti yarıya qədər - 12 gündən 6 günə qədər azaldılıb*. Bu ilin sonuna qədər bu rəqəmi 5 günə çatdırmağı planlaşdırırıq".

Xatırladaq ki, on il əvvəl Astanada Çin sədri Si Cinpin "Bir kəmər və yol" meqalayihəsinin konsepsiyasını açıqlamışdı. Qazaxıstan "Kəmər və Yol"un birgə tikintisinin həyata keçirilməsində fəal iştirak edən ölkələrdən biridir. Aprelin 23-də Çinin Qazaxıstandakı fövqəladə və səlahiyyətli səfiri Canq Siao bu təşəbbüsün onuncu ildönümünə həsr olunmuş Qazaxıstan və Çin KİV-ləri və ekspertləri üçün keçirilən seminarda çıxış edərək bildirib ki, Çinin "Bir kəmər, bir yol" təşəbbüsü Qazaxıstan Respublikasının ÜDM-nin 21 faiz artmasına kömək edəcək. Bu ilin birinci rübündə isə iki ölkənin ticarət dövriyyəsi 26,08% artıb. Səfir Qazaxıstanın "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində əsas tərəfdaş olduğuna diqqət çəkib.

**Sənaye əməkdaşlığı:**

Tokayevin sözlərinə görə, məhz sənaye əməkdaşlığı Mərkəzi Asiya ölkələrinin iqtisadi inkişafı üçün yeni istinad nöqtəsinə çevrilə bilər. Tokayev Mərkəzi Asiya ölkələri və Çin arasında **sənaye əməkdaşlığı planı**nın hazırlanmasını təklif edib. Bu istiqamətdə avtomobil sənayesi kimi elmtutumlu sahənin inkişafının böyük perspektivləri var: "*Litium, kobalt, nikel və digər mühüm nadir torpaq elementlərinin böyük ehtiyatlarına malik olan Qazaxıstan bu sənayedə genişmiqyaslı əməkdaşlığa hazırdır. Biz Çin şirkətlərini Qazaxıstanda böyük Çin brendlərinin istehsalının uğurlu nümunələri olan ərazilərdə avtomobil klasterləri yaratmağa dəvət edirik*".

Qeyd edək ki, Tokayevin səfəri çərçivəsində Qabaqcıl Çin avtomobillərinin Qazaxıstanda kiçik miqyasda yığılmasına dair müqavilələr imzalanıb. Qazaxıstanda elektrik doldurma stansiyaları üçün müvafiq infrastrukturun yaradılması üzərində iş aparılır.

**Neft kəmərlərinin ötürmə qabiliyyətinin artırılması:**

Neftin ixracının artırılması çərçivəsində Qazaxıstan-Çin neft kəmərinin ötürücülük qabiliyyətinin artırılması məsələləri gündəmdədir. Həmçinin Çimkənd neft emalı zavodunun istehsal potensialının ildə 6 milyon tondan 12 milyon tona çatdırılması, eləcə də, Kaşaqanda gücü ildə 4 milyard kubmetr olan qaz emalı zavodunun tikintisi nəzərdə tutulur.

Bundan başqa, Çinin "Sinopec" şirkəti və Qazaxıstanın dövlət neft-qaz şirkəti "KazMunayQaz" Qazaxıstanın qərbində Atırau bölgəsində polietilen zavoduna potensial investisiya üçün əsas şərtləri razılaşdırıblar. "Sinopec"in bəyanatında deyilir ki, təklif olunan investisiya ilə bağlı yekun qərar 2024-cü ildə veriləcək.

Qeyd edək ki, Çin Milli Neft Korporasiyası Qazaxıstanda neft və qaz hasilatına 12 milyard dollardan çox, eləcə də Mərkəzi Asiyadan Çinə resursların gətirilməsi üçün Qazaxıstanda əsas neft kəmərinin tikintisinə 6,2 milyard dollar sərmayə qoyub. **Təmasların intensivliyi Qazaxıstanın neft-qaz sənayesində Çinin xeyli güclənəcəyindən xəbər verir.**

Aprelin 26-da Çin Milli Neft-Qaz Korporasiyasının ("CNPC") vitse-prezidenti, "Petro China"nın rəhbəri Xuanq Yoncanqın başçılıq etdiyi nümayəndə heyəti Qazaxıstana səfər edərək Qazaxıstanın Baş naziri Əlixan Smaylov, "KazMunayQaz" ASC-nin İdarə Heyətinin sədri Maqzum Mirzəqəliev və "KazTransOil"un rəhbəri Talqat Kurmanbayev, Aktobe vilayətinin akimi Yeralı Tuqjanov ilə danışıqlar aparıb. Maraqlıdır ki, həmin günlərdə Qazaxıstanın digər milli şirkəti "KazMunayQaz"ın rəhbəri Sancar Jarkeşov "CNPC"nin Pekində yerləşən baş ofisində olub. İkitərəfli görüşlərin əsas mövzusu "CNPC" ilə müqavilənin uzadılması olub. Keçən il korporasiya Qazaxıstana gəlişinin 25 illiyini təntənəli şəkildə qeyd edib. Bu dövrdə "CNPC"nin iştirakı ilə müəssisələr ölkədə 450 milyon tona yaxın neft və 150 milyard kubmetr qaz hasil edib. Qazaxıstanın Energetika Nazirliyi də "CNPC"yə öz vəsaiti hesabına metanol istehsalı zavodunun tikintisini təklif edib. Həmçinin, Qazaxıstan hökuməti Çimkənd neft emalı zavodunun genişləndirilməsi (ildə 6 milyon tondan 12 milyon tonadək) ilə ümid edir ki, nəhayət ölkədə benzin

və dizel yanacağı qıtlığına son qoyulacaq. Bununla həmçinin Qazaxıstanda yüksək keyfiyyətli 98 markalı kommersiya benzininin istehsalını planlaşdırılır.

Mayın 15-də “KazTransOil” SC “Rosneft Oil Company” ilə Çinə Rusiya neftinin tranziti ilə bağlı müqavilənin müddətini uzadıb. Sazişə əlavə razılaşma müqavilənin müddətinin 2034-cü il yanvarın 1-dək uzadılmasını, ildə 10 milyon ton Rusiya neftinin Çinə nəqlini və mövcud tarifin saxlanılmasını nəzərdə tutur. Rusiya neftinin Qazaxıstan ərazisindən tranzitinin qiyməti 2019-cu ilin əvvəlindən dəyişməyib və ƏDV-siz bir ton üçün 15 dollar təşkil edir, bundan əvvəl bir ton üçün 11,36 dollar olub. 2023-cü ilin yanvar-aprel aylarında “KazTransOil” SC Çin Xalq Respublikasına 3,2 milyon ton Rusiya neftini tranzit edib. Ötən ilin mayında baş nazir Əlixan Smailov deputat sorğusuna cavab verərək qeyd edib ki, ötürmə qabiliyyəti 20 milyon ton olan Qazaxıstan-Çin neft kəmərindən ildə cəmi 11,5 milyon ton istifadə olunur.

**Suya qənaətin rəqəmsallaşdırılması:**

Əməkdaşlığın prioritet sahələrindən biri transsərhəd su ehtiyatlarından istifadədir. Tokayevin sözlərinə görə, Mərkəzi Asiya şirin su qıtlığı riski ən çox olan regionlardan biridir: “Bizim hamımız üçün mövcud su ehtiyatlarından istifadəyə dair əlaqələndirilmiş və rasional yanaşmalar böyük əhəmiyyət kəsb edir. Bunun fonunda suya qənaət və suvarma üçün effektiv rəqəmsal həllərin ardıcıl şəkildə həyata keçirilməsi vacibdir. Çin bu sahədə təsirli addımlar atıb. Mən Çinlə birlikdə su təsərrüfatı sektorunda yeni texnologiyaların tətbiqi proqramının işlənib hazırlanmasını təklif edirəm”.

**Vahid turizm klasteri:**

Tokayev Çin ilə Mərkəzi Asiya ölkələri arasında turizmi inkişaf etdirmək məqsədilə qrup turları üçün **vizasız rejimli İpək Yolu turoperatorlarının reyestri**nin yaradılmasını və vahid turizm klasterinin formalaşdırılmasını təklif edib. Turizm klasteri Çindən olan turistlərə bir tur ərzində Mərkəzi Asiyanın bir neçə ölkəsinə səfər etməyə imkan verəcək.

Son vaxtlar sosial şəbəkələrdə və informasiya məkanında Qazaxıstan və Çin arasında qarşılıqlı vizasız rejimin tətbiqi məsələsi qızğın müzakirələrə səbəb olub. Qazaxıstan cəmiyyətinin bəzi qruplarında Çinlə vizasız gediş-gəlişlə bağlı müəyyən narahatlıqlar müşahidə edilməkdədir. Əsasən Çindən qeyri-qanuni miqrant axınının artacağı ilə bağlı qorxular var. Bəzi Qazaxıstan vətəndaşları güman edirlər ki, çinlilər gələcək və onların işlərini əllərindən alacaq. Qazaxıstan rəsmiləri isə hesab edir ki, 30 günlük vizasız rejimin tətbiqi qərarının arxasında geosiyasət amilindən daha çox iki dövlət arasında tədricən əməkdaşlığı dərinləşdirmək üçün praqmatik iqtisadi maraqlar dayanır. Qazaxıstan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi bildirib ki, Çin vətəndaşları ötən ilin yayından etibarən Qazaxıstana 14 gün ərzində vizasız gedə bilsələr də, Çin vətəndaşlarının axını müşahidə olunmur və bu saziş çinlilərə işləmək hüququ vermir, turist və işgüzar səfərlərə icazə verir. Hökumət hesab edir ki, ümumiyyətlə, iqtisadi nöqteyi-nəzərdən Çinlə qarşılıqlı vizasız rejim istənilən halda xeyirdir. Məşğulluq hüququ

olmayan, şəxsi və biznes məqsədləri üçün səyahətləri nəzərdə tutan oxşar rejim (14 gün müddətinə vizasız rejim) Qazaxıstan hakimiyyəti tərəfindən Hindistan və İran vətəndaşları üçün tətbiq edilib. Bəzi ekspertlər isə hesab edir ki, vizasız gediş-gəlişin birbaşa iqtisadi faydaları hələki bəlli deyil, lakin bu Pekinin artan təsirinin və yeni regional geosiyasi restrukturizasiyanın mühüm simvoludur.

**Kənd təsərrüfatı:**

Tokayev deyib ki, Qazaxıstan kənd təsərrüfatı məhsullarının qonşu ölkələrə ixracının həcminin artırılmasında və strukturunun şaxələndirilməsində maraqlıdır. Tokayev "Xorqos" Beynəlxalq Ticarət Mərkəzinin bazasında **Birgə Qida Qovşağı**nın yaradılmasını təklif edib. O əlavə edib ki, aqrar-sənaye kompleksində rəqəmsal və yaşıl texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilməlidir. Bu işdə çinli tərəfdaşların təcrübə və imkanlarına böyük tələbat olacaq.

Qazaxıstan hər il 5 milyon tondan çox taxıl və 1,5 milyon tondan çox un ixrac edir (dünyanın ən böyük on buğda və un istehsalçısından biridir). Çinə 1 milyon ton buğda tədarükü ilə bağlı razılıq əldə olunub və bu həcmi dəfələrlə artırmaq olar. Son 5 ildə Qazaxıstandan Çinə yağlı toxumların ixracı 3,5 dəfə, bitki yağı 2 dəfə artıb. O əlavə edib ki, təkcə ötən il kənd təsərrüfatı məhsullarının qarşılıqlı ticarətinin həcmi 780 milyon dollardan çox olub.

Qazaxıstan Respublikasının kənd təsərrüfatı naziri Yerbol Karaşukeev aqrar-sənaye kompleksində Çin ilə əməkdaşlığın geniş perspektivləri və iki ölkənin işgüzar dairələri arasında birbaşa əlaqələrin qurulması planlarından danışıb. Çinin aparıcı kənd təsərrüfatı şirkətləri ilə keçirilən görüşdə Çinin iki şirkətinə ("COFCO" və "CITIC Group") yerli şirkətlər vasitəsilə taxıl tədarükünü həyata keçirmək təklif olunub. Bundan başqa, logistika sahəsində problemli məsələlər yaranarsa, Kənd Təsərrüfatı Nazirliyi onların operativ həllinə köməklik göstərməyə hazırdır. Nazirlikdən bildirilib ki, sərhəddə yerləşən Alaşankou və Xorqos şəhərlərində sutkada 10 min tona qədər taxıl yükü daşımaq qabiliyyətinə malik terminallar fəaliyyət göstərir.

**"Yaşıl" iqtisadiyyat:**

Prezident qeyd edib ki, Qazaxıstan 2060-cı ilə qədər karbon neytrallığına nail olmağı və 2030-cu ilə qədər bərpa olunan enerjinin payını 15%-ə çatdırmağı qarşısına məqsəd qoyub. Bu sənayeyə investisiya üçün hərtərəfli dəstək var. Qazaxıstan elektrik enerjisinin auksion məzənnəsi ilə alınmasına 20 ilə qədər zəmanət verir. Bu tarif hər il inflyasiya və məzənnənin dəyişməsi nəzərə alınmaqla müəyyən edilir.

**Regional təhlükəsizlik və sabitlik:**

Tokayev bildirib ki, Qazaxıstan Çinin Mərkəzi Asiya ilə bağlı sülhsevər xarici siyasətini, həmçinin davamlı inkişaf və qlobal təhlükəsizliyin təmin edilməsinə yönəlmiş təşəbbüslərini dəstəkləyir. Tokayev Si Cinpinin qlobal təhlükəsizlik, qlobal inkişaf və qlobal sivilizasiya sahəsində proqram xarakterli beynəlxalq təşəbbüslərini dəstəklədiyini bəyan edib: "Əminəm ki,

onların həyata keçirilməsi dünyada sabitliyin, təhlükəsizliyin və etimadın əldə olunmasına töhfə verəcək”. Qazaxıstan Ukrayna böhranının həllində Çinin konstruktiv mövqeyini yüksək qiymətləndirir. Onun sözlərinə görə, Əfqanıstandakı vəziyyət hələ də region ölkələri üçün təhlükəsizlik və sabitliyə təhdidlərdən birini təşkil edir. Tokayev hesab edir ki, **Pekinin bütün dövlətlərin ərazi bütövlüyü və suverenliyi, habelə onların daxili işlərinə qarışmamaq prinsiplərinə qəti sadiqliyini müdafiə edən dəyişməz və qəti mövqeyi xüsusi hörmətə və dəstəyə layiqdir**. Mayın 12-də Çinin CCTV kanalına verdiyi müsahibədə Prezident Tokayev bildirib ki, Qazaxıstana Tayvanın Çinin bir hissəsi olduğu tamamilə aydındır.

## Nəticə

Tokayevin dövlət səfəri gələcəkdə Qazaxıstan və Çin arasında qarşılıqlı əlaqələrin inkişafı üçün yeni perspektivlər açacaq. Bu səfəri ən yaxşı formada xarakterizə edən Tokayevin öz sözləri olub: “Əminliklə demək olar ki, bu səfər Qazaxıstan-Çin əməkdaşlığının yeni “qızıl 30 illiyi”ni açdı”.

Çinin artan iqtisadi gücü Qazaxıstanın özünə də siyasi, iqtisadi və mədəni təsir göstərir. Mərkəzi Asiyada Qazaxıstan Çinin əsas ticarət tərəfdaşıdır. Eyni zamanda, Çin üçün Qazaxıstan ən mühüm tərəfdaşlardan biridir. Pekin özünün iqtisadi inkişafının dayanıqlığını təmin etmək üçün Qazaxıstanın zəngin xammalında maraqlıdır. Başqa sözlə, Çin Qazaxıstanın zəngin təbii resurslarından özünün iqtisadi inkişafında böyük fayda əldə etməkdə, Qazaxıstan isə Çinin enerji, nəqliyyat və istehsala investisiyalarından özünün iqtisadi inkişafı və diversifikasiyası üçün istifadə etməkdədir. Bu da öz növbəsində regional sabitliyin təmin edilməsində Çin və Qazaxıstanı mühüm tərəfdaş edir.

Rusiyaya tətbiq edilən maliyyə və iqtisadi sanksiyalar Çin üçün Mərkəzi Asiya regionunda, xüsusən də Qazaxıstanda yeni imkanlar açmış oldu. Rusiya ilə ticarət imkanları daraldıqca, Qazaxıstan şərqə Çinə və digər bazarlara yönəlməyə məcbur olub. Göründüyü kimi hazırkı geosiyasi şəraitdə dənizə çıxışı olmayan Mərkəzi Asiya ölkələrinin, o cümlədən Qazaxıstanın böyük qonşusu olan Çin ilə yaxşı münasibət qurmaqdan başqa praktiki alternativ yoxdur.

**Müəllif: Nağı Əhmədov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**